**Gülşən Qalib qızı HÜSEYNZADƏ**
*Sumqayıt Dövlət Universitetinin doktorantı*
*AZ 5008, Azərbaycan Respublikası, Sumqayıt şəh., 43-cü məhəllə.*

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN DAYANIQLI İNKİŞAFININ TƏMİN OLUNMASINDA DÜNYA ÖLKƏLƏRİNİN TƏCRÜBƏSİ

**Xülasə**

*Tədqiqatın məqsədi* sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin olunmasında dünya ölkələrinin təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsindən ibarətdir. Bu məqsədlə dünya səviyyəsində sənaye müəssisələrinin inkişaf problemləri araşdırılmış və müxtəlif ölkələrdə bununla bağlı görülən tədbirlər, tətbiq olunan mexanizmlər baxılmışdır. Bir qrup dünya ölkələrində sənaye müəssisələrinin dayanıqlı inkişaf etdirilməsi təcrübəsi verilmişdir. Yeni şəraitdə beynəlxalq səviyyədə bir sıra ölkələrin sənaye müəssisələrinin dayanıqlı inkişafının səmərəli təşkili üzrə təcrübəsi ümumiləşdirilmiş və onlardan istifadə edilməsinə dair tövsiyələr hazırlanmışdır.

*Tədqiqatın metodu* kimi bir sıra elmi metodlardan, o cümlədən, analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlardan istifadə olunmuşdur. Bunlarla bərabər, sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin olunması problemləri üzrə müxtəlif tədqiqatçıların elmi yanaşmaları diqqətdə saxlanılmışdır.

*Tədqiqatın nəticələri* müasir dövrdə sənaye müəssisələrinin dayanıqlı inkişaf problemlərinin həlli yollarının müəyyənləşdirilməsidə, bunlarla bağlı tədbirlər kompleksinin hazırlanmasında faydalı ola bilər.

***Açar sözlər:*** dünya təcrübəsi, dünya ölkələri, sənaye müəssisələri, dayanıqlı inkişaf, sənaye müəssisələrinin inkişaf problemləri, sənaye müəssisələrinin inkişaf istiqamətləri.

**JEL:** L52; L53; O14
**UOT**: 336: 330.34
**DOI:** https://doi.org/ 10.54414/PQBB1677

## Giriş

Qeyd edək ki, sənaye milli gəlirin və ÜDM-in üstünlük təşkil edən hissəsini yaradan maddi istehsalın əsas sahəsidir. Əhalinin yüksək keyfiyyətli məhsula olan tələbatının ödənilmə səviyyəsi, istehsalın intensivləşdirilməsi və texniki yenidən təchizatla təmin olunması sənayenin uğurlu inkişafından asılıdır. Bir sistem kimi fəaliyyət göstərən sənaye öz prioritetləri və məsuliyyət dərəcələrinə malik olan, habelə xarici və daxili dəyişikliklərə kompleks uyğunlaşan alt sistemlərdən və elementlərdən ibarətdir. Sənayenin rolu cəmiyyətin inkişafının bütün mərhələlərində və biznesin bütün sahələrində özünü göstərir. Sənaye iqtisadiyyatın digər sahələri üçün lazım olan istehsal vasitələri yaradır. Bundan əlavə, sənaye əmək bazarına multiplikativ təsir göstərir, o, təkcə öz sahələri üçün deyil, habelə dəstəkləyici, əlaqəli müəssisələr üçün iş yerləri yaradır. Sənayelərin formalaşması üçün müəyyən şərtlər lazımdır. Onlardan ən mühümü sənaye məhsullarına kifayət qədər bazar tələbinin olmasıdır. Tələbin cüzi həcmi səmərəli istehsala zəmanət verən optimal ölçülü müəssisələrin yaradılmasına imkan vermir, bu halda belə məhsulların xaricdən alınması məqsədəuyğundur. Digər mühüm şərt istehsalın lazımi resurslarla təmin edilməsidir. İqtisadi qloballaşma şəraitində bütün sənayenin rəqabət qabiliyyətinin artırılması problemi xüsusi önəm daşıyır. Bu problemin həlli hazırda innovasiya komponentindən ayrılmazdır. Qloballaşmanın təsiri altında ölkə sənayesi aşağıdakı istiqamətlərə çevrilməlidir: yeni ticarət formatlarının inkişafı - pərakəndə satış şəbəkələrinin sürətli böyüməsi, bazara daxil olmağın yeni formalarının inkişafı (onlayn ticarət, françayzinq və s.). Bu, sənaye layihələndirilməsini, brendinqin inkişafı və bazarda informasiya mühitinin keyfiyyətcə dəyişməsini tələb edir; istehsalın sürətli texnoloji artımını təmin edilməsi, ölkə müəssisələrinə qlobal istehsalçılarla rəqabət aparmaq imkanı verilməsi və s.

İnkişaf prioritetlərinin xidmətlərin göstərilməsinə yönəldiyini nəzərə alaraq, bu gün sənaye

müəssisələrinin dayanıqlı inkişafı mexanizmlərinin formalaşdırılması xüsusilə aktual problemdir. Bu onunla əlaqədardır ki, sənaye təsərrüfat subyektlərinin maddi tələbatları ilə xarakterizə olunur. Sənaye obyektləri təkcə resurslara tələbatla deyil, habelə digər sənaye sahələrinin istehsal vasitələri ilə təchizatında iştirak edir.

**Dünya səviyyəsində müasir şəraitdə sənaye müəssisələrinin dayanıqlı inkişaf problemlərinin tədqiqi**

Məlumdur ki, sənaye müəssisələrinin dayanıqlı inkişafı onu nəzərdə tutur ki, xarici mühitin təsiri altında bir təsərrüfat subyekti kimi öz bütövlüyünü və müstəqilliyini qoruyub saxlaya bilsin, müəyyən strateji və cari məqsədlərə nail ola bilsin. Sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin edilməsi bütün dünyada prioritet məsələyə çevrilir. Bu problem son onilliklərdə maddi nemətlərin istehsalının artması, təbii sərvətlərin tükənməsi, ətraf mühitin çirklənməsi, cəmiyyətin təbəqələşməsi ilə bağlı artan müzakirələr səbəbindən daha çox diqqəti cəlb etmişdir. Sənaye müəssisələrinin dayanıqlı inkişafı onu təşkil edən elementlərin tarazlı işini nəzərdə tutur [1, s.151]. Digər tərəfdən, sənaye müəssisələrinin dayanıqlı inkişafı onların xarici mühitə, o cümlədən cəmiyyətin formalaşmasına, ətraf mühitə, sahibkarlıq sferasına təsiri ilə sıx bağlıdır. Sənaye müəssisələrinin dayanıqlı inkişaf konsepsiyasının hazırlanması və reallaşdırılması onların xarici və daxili mühitinə mənfi təsirləri azaltmağa, qarşı tərəflərlə sabit və effektiv qarşılıqlı əlaqəni təmin etməyə, böhranların və risklərin idarə edilməsi strategiyasını hazırlamağa imkan verir [2, s.2134]. Digər tərəfdən, dövlət müəssisələrin davamlı inkişafa münasibətinin formalaşmasında tənzimləyici kimi çıxış edərək məhdudlaşdırıcı və stimullaşdırıcı tədbirlərin kombinasiyasından istifadə etməklə önəmli rol oynayır [3, s.126].

Öncül Qərb şirkətləri hesab edir ki, müəssisələrin dayanıqlı inkişafı onların korporativ strategiyasının tərkib hissəsi olmalıdır. Müəssisə rəhbərliyi dayanıqlı inkişaf prinsiplərinə riayət etməli və əlavə təşkilati potensial yaratmalıdır. Dayanqılı inkişaf strategiyalar idarəetməyə nəzarət, fəaliyyətin ölçülməsi və mükafatlandırma sistemləri tərəfindən dəstəklənməlidir. Menecerlər dayanıqlılığı bütün strateji və operativ qərarlara inteqrasiya etməlidirlər. Dayanıqlılığın idarə edilməsi təkcə riskdən yayınma və uyğunluq kimi deyil, həm də innovasiya və rəqabət üstünlüyü üçün bir fürsət kimi nəzərdən keçirilməlidir [4, s.96].

Qeyd edək ki, inkişaf etmiş ölkələrin (İEÖ) sənaye müəssisələrinin dayanıqlı inkişafı bu sahədə reallaşdırılan sənaye siyasətindən asılıdır. Sənaye siyasəti yerli sənayenin və bütövlükdə iqtisadiyyatın səmərəliliyini və milli və dünya bazarlarında rəqabət qabiliyyətini artırmaq, onun müasir strukturunu formalaşdırmaq məqsədi ilə cəmiyyətin resurslarının bölüşdürülməsi sahəsində dövlət tədbirləri məcmusudur. Sənaye siyasəti İEÖ-lər üçün xarakterik olan və habelə Azərbaycan iqtisadiyyatının xüsusiyyətlərini əks etdirən yerli sənayenin formalaşmasına kömək etməlidir. Sənaye siyasətinin məqsədləri: ölkə əhalisinin münasib qiymətlərlə bu mal və xidmətlərə olan ehtiyaclarını ödəmək üçün yerli istehsalçılar tərəfindən lazımi miqdarda və tələb olunan keyfiyyətdə məhsul və xidmətlərin səmərəli istehsalı; yüksək texnologiyalı iş yerlərinin yaradılması; yerli istehsalçıların dünya bazarında əhəmiyyətli mövqelər tutmalarına köməklik göstərilməsi və s.

Hesab edirik ki, sənaye siyasətinin xüsusiyyətləri onun formalaşması və reallaşdırılması üçün mövcud şəraitdən, ölkənin tarixi ənənələrindən, sənayenin inkişaf səviyyəsindən asılıdır. Hazırda sənaye siyasətinin mahiyyətinə baxışın özü dəyişir. Əgər əvvəllər hesab edilirdi ki, sənaye siyasətinin əsas məqsədi müəyyən sənaye sahələri və ya dövlət proqramlarını prioritetləşdirmək və dəstəkləməkdir, indi yeni iqtisadi siyasətə - bilik, innovasiya, dinamik inkişaf siyasətinə keçid edilir. Sənaye siyasəti təkcə ölkənin daxili problemlərinə deyil, habelə qlobal iqtisadiyyatın inkişafının dəyişməsinə yönəldilməlidir. Bir sıra ekspertlər müəyyən bir ölkənin inkişaf xüsusiyyətlərindən asılı olaraq sənaye siyasəti növlərinin aşağıdakı təsnifatını təklif edirlər: 1) ixracyönümlü sənaye siyasəti (“Asiya” modeli adlanır); 2) idxalı əvəz etməyə yönəlmiş sənaye siyasəti və 3) innovativ sənaye siyasəti. Sənaye siyasətindən iqtisadi inkişafda uğur qazanmış bütün ölkələr fəal şəkildə istifadə etmişlər. ABŞ-ın təyyarə istehsalı və avtomobil sənayesinin yaradılması, infrastruktur layihələrinin reallaşdırılması, Tennessi çayı vadisinin və Alyaska ştatının iqtisadi inkişafı üzrə proqramları, Yaponiyanın gəmiqayırma, elektro-

nika sənayesinin sürətləndirilmiş inkişafı, yol tikintisi layihələrinin reallaşdırılması, Böyük Britaniyanın kömür və qaz sənayesinin yenidən qurulması proqramları və s. bu cür siyasətin nümunələri ola bilər.

Son illərdə Rusiya real sənaye siyasətinin vasitə və metodlarından istifadə etməklə dövlətin sahə proqramlarının həyata keçirilməsinin tipik nümunəsi olan irimiqyaslı prioritet milli layihələrin reallaşdırılmasına başlamışdır, çünki onlar böyük sosial əhəmiyyətə malik olmaqla yanaşı, mühüm iqtisadi əhəmiyyətə malikdir. Bütün bu layihələri tammiqyaslı sənaye siyasətinin başlanğıcı adlandırmaq olar. Fikrimizcə, dövlətin sənaye siyasətinin istiqamətləri ölkədə daxili bazarda mövcud vəziyyətdən, milli malların dünya bazarındakı rolundan, ölkədə hökm sürən ideologiyadan asılıdır. Bunun nəticəsidir ki, dövlət bütün dövr ərzində sənaye siyasətinin reallaşdırılmasında eyni üsullardan istifadə edə bilmir və onun məqsədləri çox vaxt müxtəlif zaman sərhədləri boyunca üst-üstə düşmür. İnkişaf etmiş ölkələrdə sənaye siyasətinin əsas modellərini ayırd etmək olar: 1. Şimali Amerika modeli; 2. Avropa modeli və 3. Asiya modeli. Şimali Amerika regionu uzun müddət keynsçilik dövrü istisna olmaqla, klassik və neoklassik iqtisadiyyat məktəblərinə sadiqliyi ilə səciyyələnir. Beləliklə, bu regionda dövlətin iqtisadiyyata və sənayeyə minimal müdaxiləsi ilə bağlı aydın siyasət formalaşıb. ABŞ və Kanadada dövlət və özəl sektor tərəfdaş deyil, hətta müəyyən dərəcədə rəqibdirlər və hökumət sənaye kompleksinin işlərinə nəzarət etmir. Bu region ölkələrinin sənaye siyasətinin başqa bir xüsusiyyəti ondan ibarətdir ki, o, rəsmi olaraq heç bir dövlət sənədində təsbit edilməmişdir, lakin dövlətin ümumi iqtisadi siyasətinin formalaşdırılması zamanı onun əsas məqsədləri müəyyən edilmişdir. Əsas məqsəd milli sənayenin rəqabət qabiliyyətinin artırılması üçün əlverişli mühitin yaradılmasında dövlət yardımıdır [5, s.154].

ABŞ-da sənaye siyasəti ən təsirli vasitələrdən biridir. ABŞ-ın sənaye siyasətinin məqsədləri, vəzifələri və strateji istiqaməti ABŞ-ın dünya iqtisadiyyatında lider mövqeyini saxlamaq və möhkəmləndirmək istəyi ilə müəyyən edilir. Bu strateji məqsəd, vəzifə və strateji istiqamətlərin maddi əsasını iqtisadiyyatın bütün sahələrində davamlı və sürətləndirilmiş innovasiyaların yaradılmasına və tətbiqinə yönəlmiş elmi-texniki bazanın daha da möhkəmləndirilməsi və elmi-texniki kadrların hazırlanması və istifadəsi sisteminin təkmilləşdirilməsi təşkil edir. ABŞ-ın sənaye siyasətinin əsas istiqaməti bütün səviyyələrdə milli sənayenin rəqabət qabiliyyətinin artırılmasıdır. Habelə, ABŞ-da dövlət sənaye siyasəti aşağıdakı əsas məqsədləri güdür: 1. İstehsalın səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq üçün onun struktur yenidən qurulmasının stimullaşdırılması. 2. Dünya bazarında ABŞ-ın sənayesi üçün ən əlverişli şəraitin yaradılması, ölkənin ixracına ticarət maneələrinin azaldılması. 3. Böhran və pandemiyalarda sonra sənaye sahələrinin bərpası. 4. Bütün sənaye sahələrində yeni innovativ texnologiyaların tətbiqi və s. Bu məqsədləri reallaşdırmaq üçün birbaşa dövlət investisiyaları, məqsədyönlü maliyyələşdirmə və subsidiyalaşdırma, proteksionist tədbirlər, vergi güzəştləri, dövlət proqramları və nəhayət, müxtəlif inzibati nəzarət tədbirləri istifadə olunur.

ABŞ avtomobil və yarımkeçirici sənayesini Yaponiya və Cənubi Koreya idxalından, polad sənayesini Avropa idxalından, yüngül sənayesini isə Çin idxalından qorumağa yönəlmiş kifayət qədər aqressiv ticarət siyasəti aparır. Qeyd edək ki, həm ABŞ, həm də Aİ ölkələrində proteksionist əhval-ruhiyyə son illərdə güclənib. Son illərdə ABŞ-ın sənaye siyasətinə aşağıdakı əsas istiqamətlər daxildir: 1) innovasiya (elmi-texniki) və investisiya siyasəti; 2) dövlət-özəl tərəfdaşlıq; 3) sənaye və innovasiya proseslərini stimullaşdırmaq üçün vergi siyasəti; 4) sənayenin inkişafına birbaşa və ya dolayı təsir göstərən digər fəaliyyətlər. Ən aparıcı sənaye ölkələri və bir çox İEOÖ-lər bu innovasiyaları dayanıqlı inkişafa nail olmaq üçün əsas hesab edirlər. Yüksək səviyyəli elmi-texniki potensiala malik olan ABŞ öz milli sənaye potensialının gücünü artırmaq üçün bütün ilkin şərtlərə malikdir. ABŞ-da elmin və texnoloji innovasiyaların sürətli inkişafının təmin edilməsində hökumətin elmi-texniki siyasəti böyük rol oynayır. O, fundamental tədqiqatlar üçün vəsaitin əsas hissəsini, bir çox sosial əhəmiyyətli tətbiqi və texnoloji işlərə xərcləri təmin edir, həmçinin əsas oyunçu olan biznesin texnoloji inkişafı üçün əlverişli şərait və stimullar yaradır. ABŞ-ın elmi-tədqiqat və təkmilləşdirməyə milli xərcləri dünyada ən böyük xərcdir və onun ən yaxın rəqibləri olan Aİ ölkələri, Yaponiya və Çinin xərclərini xeyli üstələyir [6, s.59].

**Yeni şəraitdə sənaye müəssisələrinin dayanıqlı inkişafının səmərəli təşkili məsələləri**

Hesab edirik ki, oxşar sənaye siyasəti dünyanın digər ölkələri üçün də xarakterikdir: Böyük Britaniya, Avstraliya, Yeni Zelandiya, Cənubi Afrika. Bununla belə, bu gün ABŞ-ın sənaye siyasəti bu modelə getdikcə daha az uyğun gəlir. ABŞ-ın sabiq prezident Donald Tramp hakimiyyətə gələn kimi nümayiş etdirdi ki, onun sənayeyə münasibəti n fərqli olacaq. Məsələn, o, dünyanın ən böyük təyyarə istehsal edən şirkətləri ilə dialoqa girdi və onlara vergiləri azaltmağı planlaşdırdığını söylədi, həm də istehsalın çox yüksək dəyərinə görə onları cəzalandırdı. Tramp həmçinin TMK-lara iş yerlərini saxlamaq üçün istehsalını ABŞ-dan inkişaf etməkdə olan ştatlara köçürməyi qadağan etmişdir. Bunlara baxmayaraq, ABŞ-ın sənaye siyasəti modeli Şimali Amerika kimi təsnif edilir.

Avropa regionunda iqtisadi inkişafı və sənaye strukturu ilə fərqlənən çoxlu sayda ölkələr var, lakin onların ərazi və tarixi əlaqələrinə görə sənaye siyasətlərində bir çox ümumi xüsusiyyətlərə rast gəlmək olar. Aİ ölkələri Amerika ölkələri ilə müqayisədə sənaye siyasətində iqtisadi tənzimləmə alətlərindən geniş istifadə edir. Hələ II Dünya Müharibəsindən sonra bəzi ən böyük ölkələrdə hakimiyyətə "solçu" hökumətlər gəldi, bunun nəticəsində sənaye və xidmət sahələrində dövlət sektoru fəal inkişaf etdi, lakin onların sənaye siyasətinin məqsədləri heç vaxt biznesdə tam həyata keçirilmədi, bu onları Asiya ölkələrindən fərqləndirir. Beləliklə, sahibkarların dövlətə olan hörməti, eləcə də onu bir növ "sənaye keşikçisi" kimi qəbul etməsi sayəsində dövlətlə biznes arasında birbaşa dialoqun olduğunu deyə bilərik.

Hazırda Çində sənaye siyasətinin həyata keçirilməsində "Made in China-2025" (MIC25) proqramının həyata keçirilməsi xüsusi yer tutur. Bu, yeni hökumət strategiyasıdır ki, Çinin iqtisadi inkişafı keyfiyyət və səmərəliliyin artırılmasına imkan verəcək [7, s.44]. MIC25 proqramına uyğun olaraq sənaye siyasətinin reallaşdırılmasında prioritet kimi tanınan bir sıra konkret sahələr müəyyənləşdirilmişdir. Onların arasında ən son nəsil İT-nin tətbiqi; maşınqayırma ehtiyacları üçün ən yüksək səviyyəli robotların istehsalı, aerokosmik avadanlıqların istehsalının yüksək templərinin inkişafı və s. MIC25 Çinin sənaye inkişafı strategiyasının birinci mərhələsidir, onun tamamlanmasından sonra ölkə dünyanın aparıcı ölkələrindən birinə çevrilməlidir. İkinci mərhələdə 2035-ci ilə qədər Çin sənayesinin aparıcı ölkələrin orta səviyyəsinə uyğun olması planlaşdırılır. Üçüncü mərhələdə isə 2049-cu ilə qədər dünyada lider mövqe tutmaq nəzərdə tutulur. Beləliklə, Çinin müasir sənaye siyasəti sistemli və strateji xarakter daşıyır, yeni dünya reallıqlarına və tendensiyalarına uyğundur, istehsal və xarici siyasət arasında güclənməyə və koordinasiyaya, qarşıdurma və ticarət münaqişələrinin səviyyəsinin azaldılmasına yönəlib və sanksiyaların məhdudlaşdırılmasına kömək etmək üçün nəzərdə tutulub.

Çinin sənaye siyasəti onun sənaye müəssisələrinin dayanıqlı inkişafına təkan vermişdir. Çində sənaye müəssisələrinin dayanıqlı inkişafı dəyişən bazar şəraitində baş verən davamlı prosesdir. Əsas alətlərinə isə bunlar daxildir: 1) Çin sənaye müəssisələrinin daxili bazarda rəqabətli mövqelərini gücləndirmək üçün alətlər (federal məqsədli proqramlar çərçivəsində federal büdcədən maliyyələşmə); 2) Çində sənaye müəssisələrinin sayını genişləndirmək üçün istifadə olunan alətlər (yəni yüksək texnologiyalı və innovativ məhsulların bir sıra ixracatçılarına dövlət dəstəyi). 3) Sənaye müəssisələrinin innovativ inkişafının stimullaşdırılması alətləri (dövlət-özəl əməkdaşılıq mexanizmindən istifadə; infrastrukturun inkişafı məqsədiləinnovasiya fəaliyyətinin dəstəklənməsi [8, s.48]. Çin elmi-tədqiqat işlərinə, ətraf mühitin mühafizəsinə sərmayəni artırmaq və çirklənmə problemlərini həll etmək, enerji istehlakı strukturunu optimallaşdırmaq və modernləşdirmək üçün ekoloji qanunların icrasına nəzarətini gücləndirməklə öz iqtisadiyyatını davamlı şəkildə inkişaf etdirir [9, s.15]. Sənaye müəssisələrinin dayanıqlı inkişafının müəyyən edilməsi təkcə Çində deyil, digər ölkələrdə də həmin sahə müəssisələrinin inkişafının tərkib elementidir.

Ümumən baxsaq, dünyada sənaye siyasətinin formalaşmasının 3 əsas modeli mövcuddur. Onların hər biri özünəməxsus şəkildə uğurlu və effektivdir, odur ki, bu modellərdən birinin seçimi ölkə daxilindəki vəziyyətdən, onun xüsusiyyətlərindən və tarixi ənənələrindən asılı olmalıdır. Fikrimizcə, Azərbaycan sənayesinin strukturunda böyük dəyişikliklər dövlətin müdaxiləsi olmadan mümkün

deyil, odur ki, artıq ölkəmiz üçün sənaye siyasətinin Asiya modeli ən uyğun gələnidir. Beynəlxalq təcrübə göstərir ki, dayanıqlı inkişafı təmin etmək üçün milli iqtisadiyyatın müasir reallıqlarına, eləcə də əldə edilmiş inkişaf səviyyəsinə, potensialına və institusional bazasına uyğun gələn düzgün iqtisadi inkişaf strategiyanın seçilməsi çox vacibdir. Belə ki, ötən əsrdə beynəlxalq səviyyədə rəqabət üstünlükləri qazanmış ölkələrin təcrübəsinin sistemli təhlili göstərir ki, onların uğurlarını təmin edən əsas amil, ilk öncə, iqtisadi inkişafın düzgün modelinin seçilməsi və reallaşdırılması mexanizmləri olmuşdur. Milli iqtisadiyyatın rəqabətli mübarizəsini davam etdirmək üçün hazırda qloballaşan dünyaya fəal inteqrasiya edən Azərbaycan kimi ölkələr, birincisi, iqtisadi inkişafın prioritetlərini düzgün müəyyənləşdirməli, ikincisi, onların reallaşdırılması üçün səmərəli mexanizm və vasitələr seçməlidirlər. Bu zaman mövcud reallıq və imkanlara hökmən nəzərə alınmalıdır [10, s.70].

Dünya təcrübəsindən sənaye müəssisələrinin dayanıqlı inkişafında struktur islahatlarının önəmli rol oynadığını görmək olar. Dünya təcrübəsində struktur islahatlarının əsas vəzifələrinə aşağıdakıların daxil olduğu müəyyənləşdirilmişdir: 1) səmərəli, rəqabətqabiliyyətli istehsalın dəstəklənməsi; 2) perspektivsiz və köhnəlmiş istehsalın ardıcıl olaraq dayandırılması; 3) müxtəlif infrastrukturların prioritet inkişafı; 4) durğunluqda olan sənayelərdən artım sektorlarına əsas resursların axınının stimullaşdırılması və inkişaf etməmiş regionların sürətləndirilmiş inkişafı; 5) dayanıqlı-iqtisadi artım üçün struktur şəraitin yaradılması; 6) yüksək texnologiyalı və elmi-texniki komplekslərin sürətli inkişafı; 7) iqtisadiyyatın sosial sferasının yenilənməsi və s.

Fikrimizcə, dayanıqlı inkişaf mexanizminin formalaşması zamanı müəssisələr və dövlət tərəfindən hərəkət trayektoriyası müəyyən edilərkən, sənaye müəssisəsinin strateji məqsədləri heç də həmişə zaman amili, inkişaf sürətini nəzərə almır. Görünür ki, sənaye müəssisələrinin dayanıqlı inkişafı mexanizminin formalaşdırılması nəzəriyyəsi və praktikasının bu istiqamətdə inkişafı səmərəli ola bilər.

**Nəticə**

Beləliklə, beynəlxalq təcrübədən görünür ki, sənaye müəssisələrinin dayanıqlı inkişafı bir qrup məsələlərin və amillərin xüsusi diqqət mərkəzində saxlanılmasını şərtləndirir:

– məhsuldarlığın artırılması, məhsulların keyfiyyətinin yüksəldilməsi, bir neçə istehlakçı tələbatını ödəmək üçün onların modernləşdirilməsi.

– təhlükəsiz əmək və istehsal fəaliyyəti üçün şərait yaradılması.

– innovativ texnologiyaların tətbiqi yolu ilə ətraf mühitə mənfi təsirin azaldılması.

– müəssisədə böhranın idarə edilməsi konsepsiyasının tətbiqi, rasionallaşdırmanın təşviq edilməsi;

– müəssisələrin qlobal iqtisadiyyatın mənfi təsirlərinə dayanıqlılığının artırılması.

– qarşı tərəflərlə yüksək keyfiyyətli uzunmüddətli əməkdaşlığa və təkcə müəssisənin deyil, habelə maraqlı tərəflərin inkişafına töhfə verən sabit münasibətlərin yaradılması.

Hesab edirik ki, bu qeyd olunan istiqamətlər sənaye müəssisələrinin uzunmüddətli dayanıqlı inkişafına əhəmiyyətli səviyyədə müsbət təsir göstərə bilər və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Вайгандт, А.В. Направления устойчивого развития предприятия / А.В. Вайгандт // Аллея науки. – 2022. – Т. 1, № 3(66). – С. 150-154.
2. Имамвердиева, М.И. Особенности устойчивого развития промышленных предприятий в условиях структурно-динамической трансформация экономики // Экономика, предпринимательство и право. – 2021. – Том 11. – № 9. – С. 2133-2146.
3. Толстых, Т.О. Принципы и цели устойчивого развития в стратегиях развития промышленных предприятий / Т.О. Толстых, О.А. Кондратьева // Регион: системы, экономика, управление. – 2021. – № 3(54). – С. 120-127.
4. Ахметшина А.Р., Губайдуллина Т.Н. Сравнительный анализ реализации принципов устойчивого развития на Российских и зарубежных предприятиях. Проблемы современной экономики, 2016, № 4, с.95-99.
5. Валеева, Р.А. Особенности государственной промышленной политики в

развитых странах / Р.А. Валеева, В.В. Киреева // Национальные экономические системы в контексте формирования глобального экономического пространства: сборник научных трудов III Международной научно-практической конференции, Симферополь, 24 марта 2017. – С. 153-155.

6. Преснякова, Е. Мировой опыт формирования и реализации промышленной политики: уроки для Беларуси / Е. Преснякова // Банковский вестник. – 2019. – № 5(670). – С. 55-64.

7. Тан, Ц. Промышленная политика Китая на современном этапе развития / Ц. Тан, Т. И. Глеба // Тенденции экономического развития в XXI веке : материалы V Международной научно-практической конференции. В. 2 ч., Минск, 01 марта 2023. – С. 41-45.

8. Ян, Ц. Параметры устойчивого развития промышленных предприятий Китая / Ц. Ян // Байкальская наука: идеи, инновации, инвестиции, Иркутск, 30 мая 2019 года. – Иркутск: Иркутский национальный исследовательский технический университет, 2019. – С. 47-49.

9. Митина Н.Н., Сун Я. Пути устойчивого экономического развития Китая. «Инновации и инвестиции». № 5. 2022, с.15-21.

10. Məmmədov H. Davamlı iqtisadi inkişafın nəzəri əsasları. "Statistika xəbərləri, № 3/2019", Cild 3, İyul-sentyabr, s. 64-73.

**Гюльшан Галиб кызы ГУСЕЙНЗАДЕ**

*Докторант Сумгаитского Государственного Университета*

## Опыт стран мира в обеспечении устойчивого развития промышленных предприятий

### Резюме

*Целью исследования* – изучить опыт стран мира в обеспечении устойчивого развития промышленных предприятий. С этой целью были исследованы проблемы развития промышленных предприятий на мировом уровне и рассмотрены принимаемые в этом контексте меры и механизмы в разных странах. Приведен опыт устойчивого развития промышленных предприятий в группе стран мира. В новых условиях обобщен опыт ряда стран на международном уровне по эффективной организации устойчивого развития промышленных предприятий и даны рекомендации по их использованию.

*Методы исследования* – использовался ряд научных методов, в том числе методы анализа, синтеза, сравнения и обобщения. Наряду с этим были учтены научные подходы различных исследователей по проблемам обеспечения устойчивого развития промышленных предприятий.

*Результаты исследования* – могут быть полезны при определении путей решения проблем устойчивого развития промышленных предприятий в современную эпоху и при подготовке комплекса мер, связанных с ними.

***Ключевые слова:*** мировой опыт, промышленные предприятия, устойчивое развитие, проблемы развития промышленных предприятий, направления развития промышленных предприятий.

**Gulshan Galib HUSEYNZADE**
Doctoral student of Sumgait State University

## Experience of world countries in ensuring sustainable development of industrial enterprises

**Summary**

*The purpose of the research* is to study and summarize the experience of countries around the world in ensuring the sustainable development of industrial enterprises. For this purpose, the problems of development of industrial enterprises at the global level were studied and the measures taken in this regard were considered. The experience of sustainable development of industrial enterprises in a group of countries around the world is presented. In the new conditions, the experience of countries at the international level in the effective organization of sustainable development of industrial enterprises is summarized and recommendations are given for their use.

*Research methods* - a number of scientific methods were used, including methods of analysis, synthesis, comparison and generalization. Along with this, the scientific approaches of various researchers on the problems of ensuring sustainable development of industrial enterprises were taken into account.

*The results of the study* may be useful in determining ways to solve problems of sustainable development of industrial enterprises in the modern era and in preparing a set of measures related to them.

***Keywords**:* world experience, countries of the world, industrial enterprises, sustainable development, problems of development of industrial enterprises, directions of development of industrial enterprises.